**P.F.ƏLİYEVA**
*e-mail:peri_alieva_2018@mail.ru*
**:https://orcid.org/0009-0004-5974-241X**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2024.4.236**

# TƏLƏBƏLƏRDƏ İCTİMAİ FƏALLIQ TƏRBİYƏSİNİN İMKANLARI

***Xülasə.*** *Məqalədə özünüidarə tələbələrdə ictimai fəallıq tərbiyəsinin vasitəsi kimi öyrənilir. Tələbələrin ictimai fəallığı üçün əsas şərtlərdən biri kimi onlarda özünüidarənin inkişafının vacibliyi göstərilir. Qeyd olunur ki, tələbələrin ictimai fəallığının formalaşdırılmasının uğuru tələbə özünüidarə təşkilatlarından asılıdır. Ona görə də, tələbə özünüidarə birlikləri yaxşı təşkil olunmalı, onun tərkibində tələbə şurası yaradılmalı, şuranın hüquq və səlahiyyətləri konkret və düzgün müəyyənləşdirilməli, pedaqoji kollektiv onun qəbul etdiyi qərarların icrasına dəstək göstərməlidir.*

***Açar sözlər:*** *ictimai fəallıq, özünüidarə, kollektiv, tələbə şurası, komissiya, yaradıcılıq*

Tələbələrin özfəaliyyətinin, müstəqilliyinin, özünəxidmətinin və özünüidarəsinin müasir tələblər səviyyəsində qurulmasında tələbə şurasının üzərinə mühüm vəzifələr düşür. Tələbə şurası bu işdə ali məktəbin yaxın köməkçisinə çevrilməlidir. Hər bir şəxs daim bu və ya başqa kollektivin əhatəsində, onun üzvləri ilə qarşılıqlı münasibətlərdə, əlaqələrdə, ünsiyyətdə olur, kollektivin müsbət, mənfi təsirləri nəticəsində onun dünyagörüşü formalaşır. O, yeni xarakterə, yeni keyfiyyətlərə yiyələnir. Bu baxımdan tələbələrin ali təhsil müəssisələrində kollektiv vasitəsilə tərbiyə edilməsi labüddür. Özünüidarə orqanlarının mütəşəkkil fəaliyyəti nəticəsində tələbə kollektivi uğurlar qazanır.

Özünüidarə nədir?"Azərbaycan dilinin izahlı lüğət"ində özünüidarə "hər hansı bir təşkilatın, cəmiyyətin, təsərrüfat, yaxud inzibati vahidin və s. öz daxili işlərini yerli qüvvələrlə həlletmə hüququ" [1, c.4, s.462] kimi nəzərdən keçirilir.

Məsələyə pedaqoji baxımdan yanaşdıqda həmin fikri belə ifadə etmək mümkündür: özünüidarə dedikdə, məktəbin, o cümlədən pedaqoji təmayüllü ali tədris müəssisəsinin öz həyatını daxili qüvvələrlə, tələbə oğlan və qızlarınköməyi ilə təşkiletmə hüququ anlaşılır.

"Pedaqoji ensiklopediya"da özünüidarəyə belə tərif verilir: "… özünüidarə şagirdlərdə məsuliyyət hissini, təşəbbüskarlığı, təşkilatçılıq qabiliyyətini inkişaf etdirir, kollektivdə təşkilatçıların sayını artırır, təhsildə, əməkdə və məktəbin bütün işlərində ən yaxşı əməli göstəricilərin qazanılmasına yardım edir. Özünüidarə … ictimai münasibətlərdə, yeni yaranan nə varsa, məktəb həyatına gətirir" [2, s.189].

Özünüidarənin başlıca məğzi yuxarıda nümunə gətirdiyimiz iki iqtibasda öz əksini tapmışdır və irəli sürülən fikirləri eyni zamanda tələbə özünüidarəsinə də aid etmək mümkündür. Ümumiyyətlə götürdükdə, özünüidarə: 1) tələbə şurasının işinin məzmununu zənginləşdirir; 2) tələbələrə təşkilatçılıq vərdişləri aşılayır, onlarda idarəetmə və rəhbərlik, icraetmə və ümumiyyətlə, tapşırılan işə məsuliyyət hissləri yaradır; 3) tələbələrdə təşəkkül tapmış kollektivçilik hisslərinin inkişafına kömək göstərir. Onlar kollektivin mənafeyi naminə iş görməyə öyrəşir, vətənpərvər olurlar; 4) imkan verir ki, gənclər təhsil aldıqları təhsil müəssisəsində məktəbdaxili həyatlarını özləri qursunlar; 5) cəmiyyətimizə layiq yeni keyfiyyətli insanların yetişməsi işində ali məktəblərə öz köməyini göstərir; 6) tələbələrdə şüurlu intizam yaradır; 7) tələbələrdə ictimai fəallıq üçün vacib olan bacarıq və vərdişləri formalaşdırır.

Tədqiqat zamanı özünüidarə vasitəsilə tələbə gənclərdə ictimai fəallığın inkişaf etdirilməsi məqsədilə tələbə şurasının imkanlarından istifadəyə xüsusi fikir verildi. Tədqiqata cəlb edilmiş GDU-nun Peaqoji fakültəsinin tələbə şurası tədris işinin həyata keçirilməsində, növbətçiliyin, sanitar-sağlamlıq, mədəni-kütləvi tədbirlərin təşkilində və həyata keçirilməsində pedaqoji kollektivə kömək göstərir.

Gənclər ittifaqı tələbələrin kütləvi, ictimai-siyasi təşkilatıdır və idarəetmənin səciyyəvi formasına malikdir. O, respublika və rayon (şəhər) gənclər təşkilatlarının rəhbərliyi ilə fəaliyyət göstərir. Ali təhsil müəssisələrində tələbə şurası isə tədris ocağının və müəllimlərin rəhbərliyi altında, respublika Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnaməyə uyğun surətdə öz işini qurmalıdır. Tələbə şurasında işlər gənclərin özünüidarə prinsipinə əsasən qurulur.

Tələbələrdə ictimai fəallığın formalaşdırılması kimi vacib bir məsələdən danışarkən şərəf hissini unutmaq olmaz. Çünki şərəf hissi ictimai fəallığın mühüm stimullarından biridir. Şəxsiyyətin, o cümlədən tələbənin şəxsi şərəf hissi, ilk növbədə onun ölkəmizin müdafiəsi və quruculuq işlərində necə iştirak etməsindən asılıdır. Bu bir həqiqətdir ki, şəxsi və kollektiv şərəflə bilavasitə əlaqədar olan qayğı adamlara dərin hörmətlə, özünə və başqalarına tələbkarlıqla, həm də təvazökarlıqla sıx surətdə bağlıdır. Həmin hiss insanı parlaq ideallar uğrunda fəal mübariz olmağa istiqamətləndirir. Tələbələrdə belə bir şərəf tərbiyə olunmalıdır. Bu barədə danışarkən V.M.Korotov deyirdi: "Böyük kollektiv olmadan düzgün tərbiyə mümkün deyildir, öz ləyaqətinə hörmət bəsləmə və özünü kollektivin üzvü kimi hiss etmə halları mümkün deyildir" [6, s. 127]. V.M.Korotov böyüməkdə olan nəsildə şərəf hissini dönmədən inkişaf etdirməyi vacib bilirdi.

Şəxsiyyətin müsbət keyfiyyətlərinə əsaslanmaqla, şərəf hissini inkişaf etdirmək, onun təkmilləşməsi üçün zəruri olan bütün imkanları nəzərə almaq faydalıdır. Psixoloqların (A.S. Aylakrinskaya və b.-nın) tədqiqatlarından görünür ki, şərəf hissi bu və ya digər gəncə hər hansı səviyyədə xasdır. Tərbiyə prosesində şərəf onlarda davranışın gerçək motivinə çevrilə bilər. Tələbələrlə aparılan işlər buna gətirib çıxarmalıdır ki, sonrakı ictimai fəaliyyət onu həm maraqlandırsın, həm də bu fəaliyyətin ictimai əhəmiyyətinin anlaşılması ilə, borc hissi ilə, şərəflə və başqa mənəvi motivlərlə şərtləndirsin.

Müşahidələr göstərdi ki, borc və maraq bir-birindən ayrı nəzərdən keçirilməməlidir. Onların arasında daxili əlaqə vardır. Tələbənin könüllü surətdə məşğul olduğu fəaliyyət borc hissinə əsaslanır, tədricən fəaliyyətin özü onda maraq yaradır. Həmin fəaliyyət zamanı çətinliklərin aradan qaldırılması, onun səyi gəncin özünün də xoşuna gəlir. Borca əməl edilməsi ona zövq verir. Bütün bunlar eyni zamanda borc hissini möhkəmləndirir. İctimai motivlərə əsasən, çətinlikləri dəf etmək əsasında ictimai vəzifəyə maraq güclənir. Tələbə onlara həvəslə əməl edir, gənc oğlan və qızlarda dərk olunmuş ictimai mənafe, şəxsiyyətin mənəvi istiqaməti təşəkkül tapır. İctimai fəallıq tələbələrin şəxsiyyətlərinin başqa xüsusiyyətləri ilə də əlaqəlidir. İlk növbədə fəallıq tələbənin ideya inamından asılı olur. Bu inamı şəxsiyyətin məqsədyönlülüyü və istiqaməti təzahür edir. Nəticədə, onun davranışında xətti-hərəkəti müəyyənləşdirir.

Gənclərdə mənəvi əməllərə, hərəkətlərə daxili cəhd inandırmanın bu və ya digər metodu vasitəsilə, ilk növbədə onun öz şəxsi ictimai təcrübəsi ilə meydana gələrək inkişaf edir. İctimai təcrübənin və şüurun inkişafı sayəsində tələbənin davranışının mənəvi motivləri sabit, qüvvətli olur və kollektivin mənafeyinə uyğun gəlir. Bundan başqa, tələbə öz iradəsini möhkəmləndirir, ictimai fəaliyyət üçün lazımi bacarıq və vərdişlər qazanır.

Nöqsanlara qarşı barışmazlıq ictimai fəallığın səmərəliliyindən ötrü başlıca şərtdir. Uğurlu fəaliyyətə mane olanları aradan qaldırmadan qısa müddətdə uğur qazanmaq çətindir. Bu da unudula bilməz ki, nöqsanlara qarşı mübarizə aparmaq istəyən şəxsin özü düz olmalı, özünə qarşı tələbkarlığı artırmalı, ünvanına söylənən haqlı iraddan nəticə çıxarmalı, özünü təkmilləşdirməlidir.

İctimai fəallığın səviyyəsi işin sona çatdırılması vərdişinə yiyələnməyi də tələb edir. Əks təqdirdə insan ilk çətinlik meydana çıxanadək, ilk uğursuzluğa qədər həvəslə çalışır. Çə-

tinlik onu işdən soyudur və qarşıda duran məqsəddən yan keçmək məcburiyyətində qoyur. Nəticədə tələbələrdə iradəsizlik, öz gücünə inamsızlıq meydana gəlir.

Şəxsiyyət keyfiyyətləri arasında hövsələlilik, təmkinlilik və səbir son dərəcə əhəmiyyətli rola malikdir. Hövsələ və təmkin ictimai fəallığın səviyyəsinə də müsbət təsir göstərir. Hövsələ, səbir və təmkin mənəvi normalara zidd olan, işin uğurlu olmasına mane olan hərəkət və əməlləri saxlamaq, dayandırmaq bacarığını yaradır. Gənclər tələbə kollektivində fəaliyyət göstərərək, onun tələblərini, lazım gələrsə, bu tələbləri nəzərə almağı, tabe olmağı bacarmalı, öz maraq və meyillərini, səylərini, arzularını başqalarının maraq, meyil, arzu və məqsədləri ilə uzlaşdırmalıdırlar.

Tədqiqata cəlb edilmiş tələbələr ictimai fəallığın meydana gəlməsi, inkişafı və möhkəmlənməsi üçün özünüidarənin elə sistemini yaratmağa səy göstədilər ki, bu, istər eyni yaşlı, istərsə də müxtəlif yaşlı tələbələrin birgə fəaliyyəti zamanı ictimai fəallığın inkişafı üçün yeni imkanlar açır.

Psixologiya elmləri doktoru prof. R.İ.Əliyev ali məktəblər üçün "Psixologiya" dərs vəsaitində yazır: "Kollektivin təşəkkülü iki mühüm mərhələdən ibarətdir… Birinci mərhələdə emosional amillər daha cəlbedici olur. Bu dövrdə intensiv şəkildə psixoloji oriyentasiya gedir, pozitiv münasibətlər yaranır. İkinci mərhələdə isə koqnitiv proseslər mühüm əhəmiyyət kəsb edir. Bu dövrdə hər kəs yalnız potensial və ya real emosional ünsiyyət obyekti deyil, həm də müəyyən sosial norma və ustanovkaların daşıyıcısı kimi özünü təqdim edir" [3, s.146].

Özünüidarə prinsipi əsasında qurulmuş tələbə kollektivində bu məsələlərin diqqət mərkəzində saxlanılması vacibdir.

Tədqiqata cəlb edilən pedaqoji fakültənin tələbə şurası yanında tələbələrin təşəbbüsü ilə yaradılan və müxtəlif fəaliyyət növlərini həyata keçirən özünüidarə komissiyaları da mövcuddur. Bu tipli özünüidarə komissiyaları yaradılarkən aşağıdakı ideya diqqət mərkəzində dayanmalıdır: "Fərdin, həqiqi mənəvi zənginliyi, onun bütövlükdə həqiqi münasibətlərinin zənginliyindən asılıdır" [4, s.39].

Özünüidarə komissiyalarında gənclərin hər birinin kollektivin köməyilə asılılıq, tabeçilik, idarəetmə, təşkiletmə münasibətlərinə yiyələnməsindən ötrü lazımi imkan olur. Y.R.Talıbov və F.B.Sadıqov bu barədə göstərir: "Biz yalnız o kollektivi ən yaxşı kollektiv hesab edirik ki, o, öz biliyini, vahidliyini, möhkəmliyini hiss etməklə bərabər eyni zamanda başa düşür ki, bu kollektiv, sözü bir yerə yığıb toplanmış dostların məclisi deyil, ictimai bir hadisədir, müəyyən vəzifələri, borcu olan, müəyyən məsuliyyət daşıyan bir kollektiv, bir təşkilatdır" [5, s.180].

Özünüidarə komissiyaları tələbələrdə ictimai fəallığın formalaşdırılmasında mühüm rol oynayır. Komissiyanın hər birinin işinə fərdi rəhbərliyi tələbə şurasının üzvlərindən biri həyata keçirir. Müstəqil surətdə fəaliyyət göstərən komissiyaların işinə rəhbərlik tələbələrdən birinə tapşırılır. Komissiyaların hər birinin tərkibinə müxtəlif kurslardan 13-16 tələbə oğlan və qız daxil edilir. Komissiyaların tərkibindəki fəallar gördükləri işlərə görə həm tabe olduqları müvafiq komissiya, həm də tələbə şurası, onun sədri qarşısında cavabdehlik daşıyır. Özünüidarə komissiyasının sədrləri isə ayda azı bir dəfə tələbə şurası qarşısında hesabat verir. Gəncə Dövlət Universitetində özünün aylıq bülletenini buraxan özünüidarə komissiyaları da var. Bülletendə görülmüş faydalı işlərə dair müntəzəm məqalələr verilir. Universitetdə tələbələrin yaradıcılıq qüvvətlərinin inkişafı diqqət mərkəzində saxlanılır. Özünüidarə komissiyalarında onların yaradıcı təşəbbüsləri müdafiə edilir, ictimai fəallığın mühüm komponentləri olan idarəetmə və təşkilatçılıq vərdişlərinə hər bir tələbənin yiyələnməsi təmin edilir. Kollektivdə rəhbərlikedici və tabeçilik, nəzarət və asılılıq, tələbkarlıq və icraçılıq münasibətlərində formalaşan cəhətlər tələbələrdə ictimai fəallığın xarakter əlaməti kimi formalaşdırılır.

Tədqiqata cəlb olunmuş pedaqoji fakültənin tələbə şurasında özünüidarə universitetin ənənələrinə, imkanlarına, başlıcası isə tələbələrin arzu və istəklərinə, maraq və meyillərinə əsasən müxtəlif şəkildə, müxtəlif komissiyalar vasitəsilə həyata keçirilir. Ali məktəblərdə, təxminən, 9-11 adda komissiyalar yaradılır. Buraya daxil olur: qrup nümayəndəliyi komissi-

yası, nizam-intizam və qayda-qanun komissiyası, təsərrüfat işi üzrə komissiya, mədəni-kütləvi işlər üzrə komissiya, təmizlik və səhiyyə məsələləri üzrə komissiya, növbətçilərlə iş üzrə komissiya, tərtibat işi üzrə komissiya, kitabxana komissiyası, informasiya-kommunikasiya komissiyası, hərbi vətənpərvərlik və idman komissiyası və s.

***İşin elmi nəticəsi.*** Tələbələrdə ictimai fəallığın, formalaşdırılması üzrə irəli sürülmüş fikirlər, elmi ideyalar pedaqoji psixologiyanı nəzəri müddəalarla zənginləşdirir.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, ali məktəb tələbələrinin ictimai fəallığının formalaşdırılması üzrə işin sistemi yaradılmış, tələbələri ictimai fəaliyyətə sövq edən motivlər müəyyənləşdirilmişdir.

***İşin tətbiqi əhəmiyyəti***. Tədqiqat materialları ali məktəb müəllimlərinə, akademik qrupun kuratorlarına, tərbiyə işləri üzrə prorektorlara, tələbə şurasına, gənclər təşkilatlarına əməli kömək göstərəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan dilinin izahlı lüğəti, 4 cilddə, IV cild. – Bakı: Elm, – 1987.– 640 s.
2. Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğəti. – Bakı: OKA Ofset, – 2005. – 423 s.
3. Əliyev, R.İ. Psixologiya: Ali məktəblər üçün dərs vəsaiti / R.İ.Əliyev.– Bakı: Qamma servis, – 2003, – 176 s.
4. Mehdizadə, M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları / M.M.Mehdizadə. – Bakı: Maarif, – 1982. – 384 s.
5. Talıbov, Y.R. Gənclərin milli-mənəvi tərbiyəsi problemi / Y.R.Talıbov, F.B.Sadıqov, S.M.Quliyev. – Bakı: Ünsüzadə, – 1999. – 271 s.
6. Коротов, В.М. Самоуправление школьников /В.М.Коротов. – М.: Просвещение, – 2001. – 154 s.


**P.F.Alıyeva**

**Personality Control of Public Activities of Students**

***Summary***

In article were studied the problem of research of personality control as the method of public activities of students. Have been determined, that this element-control of person is one of the basic features of improvement of personality of students.

Also in the paper noted the importance of development of this characteristics in students as the main element. Therefore, student self-government associations should be well organized, a student council should be created within their framework, the rights and powers of the council should be defined specifically and correctly, and the teaching staff should support the implementation of its decisions. It should be taken into account that each student in the environment of the team, in relationships, relationships and communication with its members, as a result of the positive and negative impact of the team, his worldview is formed. He acquires new character traits.

***Key words:*** *social activism, self-management, team, student council, commission, creativity*

**П.Ф.Алиева**

**Возможности воспитания общественной активности у студентов**

***Резюме***

В статье самоуправление изучено как средство воспитания общественной активности у студентов. Определено, что одним из важных условий для общественной активности студентов является развитие в них способностей самоуправления.

В статье отмечено, что успех формирования общественной активности студентов зависит от организации самоуправления студентов. Поэтому объединения студенческого самоуправления должны быть хорошо организованы, в их рамках должен быть создан студенческий совет,

права и полномочия совета должны быть определены конкретно и правильно, а педагогический коллектив должен поддерживать реализацию его решений.

Следует учитывать, что каждый студент в окружении коллектива, во взаимоотношениях, взаимоотношениях и общении с его членами, в результате положительного и отрицательного воздействия коллектива формируется его мировоззрение. Он приобретает новые качества характера.

**Ключевые слова:***социальная активность, самоуправление, коллектив, студенческий совет, комиссия, творчество.*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 17.11.2024*